Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi

# Bələdiyyə üzv və qulluqçularının hüquqi statusu və ondan irəli gələn əsas tələblər

# METODİK VƏSAİT

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi

# Bələdiyyə üzv və qulluqçularının hüquqi statusu və ondan irəli gələn əsas tələblər

Bu metodik vəsait “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununun 49-1-ci maddəsinə əsasən bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara yerli özünüidarəetmə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər çərçivəsində hazırlanmışdır.

*Hazırladı:* **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi**

*Rəyçilər:* **Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası**

**BAKI - 2025**

# MÜNDƏRİCAT

**Ön söz**..........................................................................................................4

**I fəsil – Bələdiyyə üzvünün hüquqi statusu**...........................................7

1.1. Bələdiyyə üzvünün hüquq və vəzifələri................................................7
1.2. Bələdiyyə üzvünün təminatları ............................................................9
1.3. Bələdiyyə üzvünün məsuliyyəti .........................................................10

**II fəsil – Bələdiyyə qulluqçusunun hüquqi statusu** ..............................15

2.1. Bələdiyyə qulluğunun təşkili. Bələdiyyənin icra aparatı ......................15
2.2. Bələdiyyə qulluqçularının hüquq və vəzifələri, təminatları
və məsuliyyəti...........................................................................................18

**III fəsil – Bələdiyyə üzv və qulluqçularının etik davranış qaydaları**.....21

3.1. Etik davranış qaydalarının hüquqi əsasları və mahiyyəti.....................21
3.2. Etik davranış qaydalarına əməl olunmasına nəzarət...........................26

**Ədəbiyyat siyahısı**........................................................................... 29

# ÖN SÖZ

Ölkəmizdə idarəetmə sisteminin daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər istər dövlət qurumları, istərsə də yerli özünüidarəetmə orqanları tərəfindən əhaliyə göstərilən xidmət səviyyəsinin və vətəndaş məmnunluğunun yüksəldilməsinə yönəlmişdir.

Əhaliyə yaxın və onların gündəlik qayğılarına daha dərindən bələd olan qurum kimi bələdiyyələr bu sahəyə həssaslıqla yanaşmalı və diqqəti artırmalıdır.

Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası və müvafiq qanunvericilik aktları ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir.

Yerli əhəmiyyət kəsb edən məsələlərin həlli, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət bələdiyyələrin fəaliyyətində əsas yer tutmalı və bələdiyyələr öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməlidir.

Bələdiyyələr tərəfindən şəffaflığın artırılması, vətəndaş cəmiyyəti institutları ilə səmərəli qarşılıqlı əlaqələrin qurulması, yerli problemlərin həlli zamanı əhalinin maraqlarının nəzərə alınması yerli özünüidarəetmə orqanlarına olan etimadın artmasına və vətəndaş məmnunluğunun yüksəlməsinə birbaşa təsir edən amillərdəndir.

Lakin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsinin nəticələri, habelə müvafiq təhlillər bu sahədə bir sıra pozuntuların olduğunu və bəzən qanunvericiliyin tələblərinə riayət edilmədiyini göstərir.

Belə ki, bəzi hallarda bələdiyyələr tərəfindən qərar layihələri hazırlanarkən və qərarlar qəbul edilərkən əhalinin maraqlarının nəzərə alınmaması, bələdiyyə üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmaması, struktur qurumların rəhbərləri tərəfindən hesabatlılığın təmin edilməməsi, bələdiyyənin icra aparatının formalaşdırılması və fəaliyyəti ilə bağlı qanunvericiliyin tələblərinə tam əməl olunmaması, icra aparatının düzgün təşkil olunmaması, təcrübəli, ixtisaslaşdırılmış kadrların bələdiyyəyə cəlb edilməməsi, bələdiyyə qulluğuna qəbul qaydalarının pozulması kimi hallara rast gəlinir.

Eyni zamanda icra aparatının strukturu təsdiq edilərkən bir sıra hallarda bələdiyyənin qarşısında duran vəzifələr, onun maliyyə vəziyyəti nəzərə alınmır, şişirdilmiş icra aparatı formalaşdırılır ki, bu da bələdiyyə xərclərinin süni olaraq artmasına səbəb olur. Bu halda təbii ki, səmərəli yerli özünüidarəetmə fəaliyyətindən danışmaq mümkün deyildir.

Sadalananlardan əlavə**,** təhlillər göstərir ki, bəzi bələdiyyələr tərəfindən qanunun tələblərinə zidd olaraq vətəndaşlar bələdiyyə qulluğuna bələdiyyə qərarı olmadan və ya müsabiqə keçirilmədən qəbul edilirlər. Halbuki, yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərləri

bələdiyyənin qərarına əsasən, digər işçilər isə bələdiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq bələdiyyə sədri tərəfindən təyin edilməlidir. Həmçinin bəzi bələdiyyələrdə bələdiyyə qulluğuna qəbulun keçirilməsi məqsədi ilə ümumiyyətlə müsabiqə komissiyası yaradılmır.

Qanunvericiliyin tələblərinə düzgün əməl edilməməsi bələdiyyələrdə qeyri-peşəkar mühitin yaranmasına, işin keyfiyyətinin aşağı səviyyəyə düşməsinə səbəb olur.

Beləliklə, ümumiləşdirilmiş şəkildə yanaşılarsa bələdiyyələrin fəaliyyətində yol verilən qanun pozuntularını doğuran səbəblər və bu pozuntulara yol verilməsinə imkan yaradan şərait aşağıdakıları ehtiva edir:

- bələdiyyənin təkbaşına idarə edilməsi;
- bir çox hallarda bələdiyyə üzvlərinin tam fəaliyyətsizliyi;
- bələdiyyə komissiyalarının formal fəaliyyət göstərməsi;
- bələdiyyə-vətəndaş münasibətlərinin düzgün qurulmaması, yerli əhalinin ictimai nəzarətinin olmaması;
- bələdiyyənin vəzifəli şəxslərinin qanunu bilməmələri, öz vəzifələrini və məsuliyyətlərini dərk etməmələri;
- peşəkar bələdiyyə qulluqçusu korpusunun formalaşmaması.

Bu problemlərin qarşısının alınması üçün bələdiyyə qərarları qəbul edilərkən yerli əhalinin sosial müdafiəsi, sosial inkişaf, ekologiya, iqtisadi inkişaf məsələlərinə diqqət daha da artırılmalı, yerli özünüidarəetmənin səmərəli təşkili istiqamətində tədbirlər görülməli, habelə qanunda nəzərdə tutulan hallarda müvafiq daimi və başqa komissiyalar yaradılmalıdır.

Qanunvericiliyin tələblərinə əsasən qeyd olunan məsələlərə məsul şəxs kimi bələdiyyə sədrləri icra aparatını qanunun tələblərinə uyğun təşkil etməlidirlər. Həmçinin bələdiyyə qulluğuna qəbul edilmiş şəxslər də öz vəzifələrini layiqincə, vicdanla həyata keçirməlidirlər.

Yerli əhəmiyyətli məsələlər üzrə qanunvericiliyə uyğun effektiv və çevik qərarların qəbulu və onların lazımi qaydada icrası bilavasitə bələdiyyə üzv və qulluqçularının peşəkar hazırlıq səviyyəsindən də asılıdır.

Müxtəlif sahələr üzrə ixtisaslaşmış kadrların olmaması yerli özünüidarəetmənin qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərinin qismən həyata keçirilməsinə, vətəndaş müraciətlərinin lazımi qaydada həll edilməməsinə və təbii olaraq vətəndaş məmnunluğunun azalmasına, əhalinin bələdiyyələrə olan inamının zəifləməsinə gətirib çıxarır.

Hazırkı metodik vəsait bələdiyyə üzv və qulluqçularının statusu, hüquq və vəzifələri, təminatları və məsuliyyəti, eləcə də bələdiyyələrdə icra aparatının formalaşması, qulluğa qəbul, etik davranış qaydaları ilə bağlı məsələləri əhatə edir.

Belə ki, metodik vəsait üç fəsildən ibarətdir. “Bələdiyyə üzvünün hüquqi statusu” adlanan birinci fəsildə bələdiyyə üzvünün hüquq və vəzifələri, təminatları və məsuliyyəti məsələlərinə toxunulmuşdur.

İkinci fəsil “Bələdiyyə qulluqçusunun hüquqi statusu” adlanır və bələdiyyə qulluğunun təşkili, bələdiyyələrdə icra aparatının formalaşdırılması, qulluqçuların hüquq və vəzifələri və digər məsələləri əhatə edir.

Sonuncu, üçüncü fəsil isə “Bələdiyyə üzv və qulluqçularının etik davranış qaydaları” adlanır və həmin fəsildə etik davranış qaydaları və onların mahiyyəti, bu qaydalara əməl olunmasına nəzarət kimi məsələlər əksini tapmışdır.

Metodik vəsait hazırlanarkən yuxarıda qeyd olunan məsələləri tənzimləyən qanunvericilik aktlarından geniş istifadə olunmuş, eləcə də mümkün qədər elmi-praktiki mənbələrə istinad edilmişdir.

Bu vəsaitin hazırlanması ilə bələdiyyə qulluğunun təşkili və icra aparatının düzgün qurulması, əməkdaşların maarifləndirilməsi, vətəndaş qəbulu zamanı etik davranış qaydalarına riayət edilməsinin təmini, yerli özünüidarəetmədə vətəndaş məmnunluğunun artırılması və ictimai etimadın yüksəldilməsi kimi istiqamətlərdə müsbət irəliləyişlərə nail olunması hədəflənmişdir.

Göstərilənlərdən göründüyü kimi bələdiyyə üzv və qulluqçuları tərəfindən ilk növbədə aidiyyəti qanunvericiliyin tələblərinin dərindən öyrənilməsi təmin olunmalı, müsabiqə komissiyalarının təşkili və fəaliyyət göstərməsinə, ixtisaslaşmış kadrların qulluğa qəbul məsələlərinə diqqət artırılmalı və bu sahədə qanunvericiliyin müddəalarına dönmədən əməl olunmalıdır.

Eyni zamanda mövcud problemlərin qarşısını almaq üçün bələdiyyə üzv və qulluqçuları daim öz üzərlərində işləməli, həmçinin mövcud kadr korpusunun potensialından maksimum istifadə edilməlidir.

# I FƏSİL

# BƏLƏDİYYƏ ÜZVÜNÜN HÜQUQİ STATUSU

## 1.1. Bələdiyyə üzvünün hüquqları və vəzifələri

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 15-ci maddəsinin 1-ci hissəsinə əsasən bələdiyyə üzvü bələdiyyə seçkilərində seçilmiş, mandatı ərazi seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir.

Bələdiyyə üzvünün statusu Azərbaycan Respublikasının Konstitusiyası, "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyələrin nizamnaməsi ilə tənzimlənir.

Qanunvericiliyə əsasən Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçilməsi ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə həyata keçirilir.

Seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

Bələdiyyə üzvünün hüquqi vəziyyəti ilə bağlı münasibətlər "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının 2000-ci il 18 aprel tarixli Qanunu ilə tənzimlənir.

Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir. Bələdiyyə üzvünün hüquqlarının təmin edilməsinin əsasları "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bələdiyyə üzvlərinin statusu həmin Qanunun 20-ci maddəsi ilə müəyyən edilmişdir.

Bələdiyyə üzvlərinin öz səlahiyyətlərini maneəsiz və səmərəli həyata keçirməsinə, hüquqlarının, şərəf və ləyaqətinin müdafiəsinə dövlət təminat verir. Bələdiyyə üzvünün səlahiyyət müddəti beş ildir. Bələdiyyə üzvləri bələdiyyənin nizamnaməsinə uyğun olaraq öz səlahiyyətlərini daimi əsasda icra edə bilərlər. Öz səlahiyyətlərini daimi əsasda icra edən bələdiyyə üzvlərinin bu vəzifələrdə çalışmaqla bağlı sosial təminatları Azərbaycan Respublikasının qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilir.

Ərazi seçki komissiyası tərəfindən seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində bələdiyyə üzvlərinə müvafiq vəsiqə verilir.

Bələdiyyə üzvləri qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərini həyata keçirmək üçün bir sıra hüquq və vəzifələrə malikdirlər. "Bələdiyyə üzvünün statusu

haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci fəslində bələdiyyə üzvünün hüquq və vəzifələri təsbit edilmişdir.

Belə ki, bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:

- bələdiyyənin daimi və digər komissiyalarına üzv seçmək və seçilmək;
- bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək;
- müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək;
- çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrlə göstərilmiş namizədlərə sual vermək, arayış vermək;
- səsvermədə iştirak etmək;
- bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;
- bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;
- bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;
- sorğu vermək.

Eyni zamanda bələdiyyə üzvü yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisəsi, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququna malikdir.

Həmin subyektlər tərəfindən bələdiyyə üzvünün sorğusuna ən gec on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və ya yoxlanılması hallarında isə bir aydan gec olmayaraq cavab verilməlidir.

Bələdiyyə üzvü bələdiyyə tərəfindən onun səlahiyyətləri daxilində və qanunvericiliyə müvafiq olaraq qəbul edilmiş qərarların pozulmasını aşkar etdikdə bələdiyyə ərazisində yerləşən müvafiq pozuntulara yol vermiş şəxslərdən onların aradan qaldırılmasını tələb edə bilər.

Bələdiyyə üzvlərinin bələdiyyə orqanlarının iclaslarında bələdiyyənin səlahiyyətlərinə aid məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır. Bələdiyyə üzvü bir və ya bir neçə bələdiyyənin daimi və başqa komissiyasının üzvü ola bilər. Bələdiyyə üzvü müvafiq icra hakimiyyəti orqanlarına yerli əhəmiyyətli məsələlərlə bağlı müraciət edə bilər.

Bələdiyyə iclasları növbəti, növbədənkənar, açıq və bağlı formada keçirilə bilər.

Növbəti bələdiyyə iclaslarının çağrılma və keçirilmə qaydası reqlamentlə müəyyən edilir, növbədənkənar iclaslar isə bələdiyyənin rəhbərinin və üzvlərinin yazılı təklifi ilə çağrılır.

Açıq bələdiyyə iclasları bələdiyyə qurumunun rəhbəri, əhali və akkreditasiya olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə, bağlı iclaslar isə əhali və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı olmadan keçirilir.

Bələdiyyə üzvlərinin əsas vəzifələri seçicilərlə mütəmadi olaraq əlaqə saxlamaq, görüşlər keçirmək, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmaq, həmçinin 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməkdən ibarətdir.

Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünə seçicilərlə görüşmək üçün köməklik göstərməlidirlər.

## 1.2. Bələdiyyə üzvünün təminatları

Bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir.

Səlahiyyət müddətində bələdiyyə üzvü bələdiyyənin, bələdiyyənin iclasları arasındakı dövrdə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə müdiriyyətin təşəbbüsü ilə işdən çıxarıla, yaxud intizam tənbehi qaydasında azmaaşlı işə keçirilə bilməz. Müəssisə, idarə və təşkilat yenidən təşkil olunduqda, struktur dəyişikliyi edildiyi hallarda da bu təminat tətbiq olunur.

Bələdiyyə üzvlərinin təminatları sistemində onların əmək hüquqlarının təminatı xüsusi yer tutur. Bu təminatlara dair normalar "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində təsbit olunmuşdur.

Başqa əsas iş yeri olan bələdiyyə üzvü (sədr və onun müavinləri daxil olmaqla) öz səlahiyyətlərini daimi əsasla icra etmək və əmək haqqını bələdiyyədən almaq üçün bələdiyyəyə yazılı müraciət edə bilər.

Bələdiyyə sədri bu əsasla müraciət etmiş bələdiyyə üzvünün öz səlahiyyətlərini daimi əsasla icra etməsinə bələdiyyədə ehtiyac olduqda, 5 gün müddətində bu barədə bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürənə yazılı bildiriş göndərir.

Bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürən həmin bildirişi aldığı tarixdən 5 gün müddətində əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq bələdiyyə üzvü ilə əmək müqaviləsinə xitam verir və bu barədə bələdiyyəyə yazılı məlumat verir.

Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvlərinin (sədr və onun müavinləri daxil olmaqla) say həddi hər bir bələdiyyədə qanunvericiliklə müəyyən edilmiş üzvlərin sayından asılı olaraq aşağıdakı kimi müəyyənləşdirilir:

- 5 və ya 7 üzvü olan bələdiyyələrdə - 2 üzv;
- 9 və ya 11 üzvü olan bələdiyyələrdə - 3 üzv;
- 13 və ya 15 üzvü olan bələdiyyələrdə - 4 üzv;
- 17 və ya 19 üzvü olan bələdiyyələrdə - 5 üzv.

Əmək haqqını bələdiyyədən alan bələdiyyə üzvünün əsas iş yeri bələdiyyə hesab olunur. Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətlərini həyata keçirərkən istehsal və ya xidmət, eləcə də elmi, təhsil və yaradıcılıq fəaliyyətini dayandırmır.

Bələdiyyə üzvü bələdiyyənin və ya onun daimi komissiyalarının iclasları zamanı öz daimi iş yerindəki vəzifələrinin yerinə yetirilməsindən azad olunur.

Bələdiyyə üzvü "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü ola bilməz.

Eyni zamanda bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir.

"Bələdiyyə üzvünün statusu haqqında" Qanunun 12-ci maddəsində bələdiyyə üzvünün fəaliyyətinin informasiya təminatı ilə bağlı məsələlər nəzərdə tutulmuşdur. Belə ki, bələdiyyənin sədri və müavini, bələdiyyənin icra aparatı bələdiyyə üzvlərini lazımi sənədlərlə və bələdiyyənin rəsmi nəşrləri ilə təmin edir, köməyə ehtiyac olan məsələlərlə bağlı onlara yardım göstərir və onların yerli özünüidarə orqanlarının qərar və sərəncamları ilə tanış olmalarına şərait yaradır.

Təşkilati təminatlara gəldikdə qeyd olunmalıdır ki, bu təminatlar bələdiyyə üzvlərinin qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətləri çərçivəsində maneəsiz, sərbəst fəaliyyət göstərməsi üçün digər qurumlar tərəfindən zəruri şəraitin yaradılması ilə bağlıdır.

Belə ki, bələdiyyə üzvləri fəaliyyəti ilə bağlı dövlət və digər bələdiyyə orqanlarının vəzifəli şəxsləri tərəfindən qəbul edilməli, müxtəlif qurumlardan fəaliyyəti ilə bağlı məlumat və materiallar almaq hüququna malik olmalıdır. Eyni zamanda nümayəndəli orqandakı fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində çıxışlar edə bilərlər.

## 1.3. Bələdiyyə üzvünün məsuliyyəti

Azərbaycan Respublikasının Konstitusiyasının 146-cı maddəsində bələdiyyələrin müstəqilliyinin təminatı məsələləri təsbit edilmişdir. Həmin maddənin tələblərinə əsasən bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.

Ümumilikdə bələdiyyə üzvlərinin hüquqi məsuliyyətinin aşağıdakı növlərini fərqləndirmək olar:

- intizam məsuliyyəti;
- inzibati məsuliyyət;
- mülki (maddi) məsuliyyət;
- cinayət məsuliyyəti.

Hüquqi məsuliyyətin göstərilən növləri bir-birindən məsuliyyətə cəlb edilmə əsasları və qaydası ilə, məsuliyyətin məzmununa görə, məsuliyyətə cəlb olunanın (bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri) və cəlb etmək hüququ olan

(bələdiyyələrin məsuliyyəti dövlət, fiziki və hüquqi şəxslər qarşısında yaranır) subyektlərin dairəsinə və hallara görə fərqlənirlər.

Yerli özünüidarəetmənin vəzifəli şəxslərinin və seçkili orqanlarının məsuliyyəti prinsipcə yerli əhəmiyyətli məsələlərin daha optimal həllinə, yerli əhalinin maraqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

"Bələdiyyə üzvünün statusu haqqında" Qanunun 14-cü maddəsi "Bələdiyyə üzvünün bələdiyyədə fəaliyyəti ilə əlaqədar məsuliyyəti" adlanır. Həmin maddəyə əsasən bələdiyyə üzvü barəsində bələdiyyədə fəaliyyəti ilə əlaqədar aşağıdakı hallarda intizam tədbirləri tətbiq edilir:

- bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;
- bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzrsüz səbəbə görə iştirak etmədikdə;
- "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda).

Bələdiyyə üzvü barəsində aşağıda göstərilən intizam tədbirlərinin tətbiq edilməsi qaydası bələdiyyənin nizamnaməsi ilə tənzimlənir:

- xəbərdarlıq;
- söz kəsmə;
- iclas zalından çıxarma;
- töhmət;
- bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 549.1-ci maddəsinə əsasən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən araşdırmaların aparılmasına maneçilik törədilməsinə və 549.2-ci maddəsinə əsasən bələdiyyə qərarlarının qəbul edildiyi vaxtdan 3 iş günü ərzində onların surətinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirilməməsinə görə vəzifəli şəxslərin cərimə edilməsi nəzərdə tutulmuşdur.

Məcəllənin 17-ci maddəsinin Qeyd hissəsində göstərilmişdir ki, dövlət hakimiyyətinin nümayəndəsi funksiyasını həyata keçirən şəxslər, dövlət orqanlarında, bələdiyyələrdə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, dövlət və qeyri-dövlət təşkilatlarında, idarə və müəssisələrində, o cümlədən publik hüquqi şəxslərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən şəxslər və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq belə səlahiyyətləri yerinə yetirən fiziki şəxslər vəzifəli şəxs hesab edilirlər.

Eyni zamanda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, bələdiyyə üzvləri və qulluqçuları, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının rəhbərləri və işçiləri, xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər "vəzifəli şəxs"lər kateqoriyasına daxil edilmişdir.

Məcəllənin "Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər" adlı fəslində korrupsiya cinayətlərinə vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə səlahiyyətlərini aşma, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, rüşvət alma (passiv rüşvətxorluq), rüşvət vermə (aktiv rüşvətxorluq), vəzifə saxtakarlığı aid edilmişdir.

Korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılması, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsində "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi müstəsna rol oynamışdır.

Həmin Qanunun 2.1.6-cı və 2.1.7-ci maddələrinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər və yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər korrupsiya hüquqpozmalarının subyektlərinə aiddir.

Bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, qurumlar və vəzifəli şəxslər səlahiyyətləri çərçivəsində korrupsiyaya qarşı mübarizəni həyata keçirir və bu sahədə məsuliyyət daşıyırlar.

Qanunun 9-cu maddəsi "korrupsiya ilə əlaqədar hüquqpozmalar" adlanır. Həmin maddəyə əsasən bu hüquqpozmalar bilavasitə korrupsiya hüquqpozmaları və korrupsiyaya şərait yaradan hüquqpozmalara ayrılır.

Korrupsiya hüquqpozmalarına:

- vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər tələb etməsi, əldə etməsi və ya belə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin verilməsi ilə bağlı təklifi və ya vədi qəbul etməsi;
- vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində qanunsuz olaraq alınmış əmlakdan özü və ya üçüncü şəxslər üçün mənfəət əldə etmək məqsədilə istifadə edilməsi;
- vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar maddi və sair nemətləri, imtiyazları və ya güzəştləri haqqı ödənilmədən və ya bazar qiymətlərindən və ya dövlət tərəfindən tənzimlənən qiymətlərdən aşağı qiymətə (tarifə) əldə edilməsi;
- vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan, royaltidən və ya

icarədən Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olaraq gəlir götürməsi və s. aiddir.

Korrupsiyaya şərait yaradan hüquqpozmalara isə:

- xidməti vəzifəsini (səlahiyyətlərini) icra etdiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli vəzifə tutmaq və ya fəaliyyət növü ilə məşğul olmaq;
- statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi məqsədilə fiziki və hüquqi şəxslərə sahibkarlıq fəaliyyətini həyata keçirməkdə, eləcə də subsidiyalar, subvensiyalar, dotasiyalar, kreditlər və digər güzəştlər alınmasında qanunsuz kömək etmək;
- bilavasitə, başqa və ya uydurma şəxslər vasitəsilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, əvəzçilik üzrə işləmək (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla), habelə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin və maliyyə-kredit müəssisələrinin icra orqanlarının tərkibinə daxil olmaq və digərləri aiddir.

Qanunda nəzərdə tutulan hallardan başqa, vəzifəli şəxslərin fəaliyyətini tənzimləyən və ya statusunu müəyyən edən qanunvericilik aktlarında korrupsiya ilə əlaqədar digər hüquqpozmalar müəyyən edilə bilər.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar qanunvericiliklə müəyyən edilmiş qaydada intizam, mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

Bələdiyyə üzvlərinin məsuliyyətinə gəldikdə onların səlahiyyətinin itirilməsi, xitamı və dayandırılması məsələlərinə də toxunulmalıdır.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə görə bələdiyyə üzvlərinin səlahiyyətləri aşağıdakı hallarda itirilmiş hesab edilir:

- barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
- Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Həmin Qanunun 22-ci maddəsinə əsasən bələdiyyə üzvlərinin səlahiyyətlərinə onların səlahiyyət müddəti qurtardıqda xitam verilir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinə, həmçinin aşağıdakı əsaslara görə vaxtından əvvəl xitam verilə bilər:

- bələdiyyə seçkiləri zamanı səslərin düzgün hesablanmadığı aşkar edildikdə;
- öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;
- bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;

- qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda və ya bələdiyyə qulluqçusu kimi vəzifə tutduqda;
- altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda;
- ardıcıl olaraq üç dəfə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda və ya il ərzində keçirilən iclasların yarısından çoxunda üzrsüz səbəbdən iştirak etmədikdə.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması qaydası Qanunun 22-1-ci maddəsi ilə müəyyən edilmişdir.

Bələdiyyə üzvlərinin səlahiyyətlərinin dayandırılması dedikdə, onların "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş hüquqlarının həyata keçirilməsinin müvəqqəti dayandırılması başa düşülür.

Bələdiyyə üzvlərinin səlahiyyətləri bu Qanunun 21-ci və 22-ci maddələrində nəzərdə tutulmuş əsaslarla bələdiyyə üzvünün səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən bu Qanunun 23-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq bələdiyyə tərəfindən qərar qəbul edilənədək dayandırılır.

# II FƏSİL

# BƏLƏDİYYƏ QULLUQÇUSUNUN HÜQUQİ STATUSU

## 2.1. Bələdiyyə qulluğunun təşkili. Bələdiyyənin icra aparatı

Yerli özünüidarəetmənin səmərəli fəaliyyətini şərtləndirən əsas amillərdən biri onun təkmil icra orqanına və peşəkar bələdiyyə qulluqçularına malik olmasıdır. Yerli əhəmiyyətli məsələlər üzrə qanunvericiliyə uyğun effektiv və çevik qərarların qəbulu və onların lazımi qaydada icrası birbaşa bələdiyyə kadrlarının peşə hazırlığının səviyyəsindən asılıdır.

Müxtəlif sahələr üzrə ixtisaslaşmış kadrların olmaması yerli özünüidarəetmənin qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərinin həyata keçirilməməsinə və ya qismən həyata keçirilməsinə, vətəndaş müraciətlərinin lazımi qaydada həll edilməməsinə və nəticədə vətəndaş məmnunluğunun təmin olunmamasına, əhalinin bələdiyyələrə olan inamının itməsinə gətirib çıxarır. Bu problemləri aradan qaldırmaq üçün qanunvericiliyin tələbləri barədə məlumatlı olan, eyni zamanda ayrı-ayrı vəzifələr üzrə ixtisaslaşmış şəxslərin bələdiyyə qulluğuna qəbul edilməsi olduqca vacibdir.

Son dövrlərdə ölkəmizdə vətəndaş məmnunluğuna əsaslanan dövlət idarəetməsinin həyata keçirilməsi istiqamətində bir çox mühüm addımlar atılmışdır və hazırda da bu proses davam etməkdədir. Yeni idarəetmə sistemləri istər dövlət qurumlarının, istərsə də yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin artırılmasına, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və bunun nəticəsində də vətəndaşların rifahının və məmnunluq səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Ötən dövrlərdə yerli özünüidarəetmə orqanı kimi bələdiyyələrin və bələdiyyə qulluqçularının fəaliyyətində insan hüquq və azadlıqlarına hörmət edilməsinə, bu sahədə səmərəliliyin, şəffaflığın artırılmasına, maraqlar toqquşmasının qarşısının alınmasına yönələn bir sıra normativ hüquqi aktlar qəbul edilmiş, həmin sənədlərdə bələdiyyə qulluqçularının üzərinə bir sıra vəzifələr qoyulmuş və onların xidməti fəaliyyəti ilə bağlı məhdudiyyət və qadağalar müəyyən edilmişdir.

Həyata keçirilən tədbirlərə baxmayaraq bəzi hallarda bələdiyyə sədrləri tərəfindən bələdiyyənin icra aparatının düzgün təşkil olunmaması, təcrübəli, ixtisaslaşdırılmış kadrların bələdiyyənin icra aparatına cəlb edilməməsi, bələdiyyə qulluğuna qəbul qaydalarının pozulması kimi hallara rast gəlinir.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinə əsasən bələdiyyənin icra orqanı onun icra aparatıdır. İcra aparatı bələdiyyənin sədrindən və onun bu Qanunla və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırdığı struktur bölmələrindən və bələdiyyənin nizamnaməsinə müvafiq surətdə yaradılan digər icra strukturlarından ibarətdir.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə iclasının qərarına əsasən bələdiyyənin sədri təyin edir.

Bələdiyyənin icra aparatının strukturuna Hüquq şöbəsi, Mətbuat xidməti, Mühasibatlıq, Təşkilati şöbə, Dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə əlaqələr şöbəsi kimi struktur bölmələr daxildir ki, onlar da bələdiyyə əməkdaşı olan qulluqçulardan ibarətdir.

Həmin Qanunun 25-ci maddəsinə əsasən bələdiyyə orqanlarında vəzifə tutan işçilər bələdiyyə qulluqçularıdır. Bələdiyyə orqanlarında qulluq müddəti dövlət qulluğu haqqında qanunvericiliyə uyğun olaraq güzəştlər və təminatlar verilməsi üçün hesablanan staja daxil edilir.

Bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, “Bələdiyyə qulluğu haqqında” Qanun, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

“Bələdiyyə qulluğu haqqında” Qanun bələdiyyə qulluğu ilə bağlı münasibətləri və Azərbaycan Respublikasında bələdiyyə qulluqçularının hüquqi vəziyyətini tənzimləyir.

Həmin Qanunun 2-ci maddəsinə əsasən bələdiyyə qulluğu yerli özünüidarə orqanlarının səlahiyyətlərini icra etmək üçün həmin orqanlarda daimi peşə fəaliyyətidir.

Bələdiyyə üzvləri və bələdiyyələrin fəaliyyətinin təmin olunması ilə birbaşa bağlı olmayan vəzifələri yerinə yetirən şəxslər bələdiyyə qulluqçusu hesab edilmirlər. Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz.

Bələdiyyə qulluqçularından ibarət icra aparatının strukturunu, ştat cədvəlini, bələdiyyə qulluqçusunun vəzifə təlimatını və saxlanması xərcləri smetasını bələdiyyə təsdiq edir. Bələdiyyənin icra aparatına rəhbərliyi bələdiyyənin sədri həyata keçirir.

Bələdiyyənin icra aparatı bələdiyyənin, habelə bələdiyyənin daimi və başqa komissiyalarının təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini həyata keçirir, bələdiyyə sədrinin tapşırıqlarını yerinə yetirir, bələdiyyənin qərarlarının icrasını təmin edir. Bələdiyyənin icra aparatının struktur bölmələrinin rəhbərləri görülmüş işlər barədə bələdiyyə sədrinə və bələdiyyəyə hesabat, daimi və başqa komissiyaların iclaslarında səlahiyyətlərinə aid məsələlər barəsində məlumat verirlər.

Bələdiyyə icra aparatının tərkibi bələdiyyənin fəaliyyət göstərdiyi əraziyə və konkret iş vəziyyətinə uyğun olaraq, müvafiq bələdiyyənin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada və sayda idarə rəisləri və rəis müavinləri, şöbə müdirləri və müdir müavinləri, mütəxəssislər, müfəttişlər və digər işçilərdən təşkil olunur.

Bələdiyyə sədri və bələdiyyənin icra aparatı struktur bölmələrinin rəhbərləri bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi həyata keçirir və aşağıdakı vəzifələri daşıyırlar:

- bu Qanunun yerinə yetirilməsi üzərində nəzarət;
- əlavə təhsil sahəsində işin təşkil edilməsi;
- bələdiyyə qulluqçularının yerdəyişməsinə dair təkliflərin verilməsi;
- bələdiyyə tərəfindən qəbul edilmiş qərarların icra edilməsi.

Yerli əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyənin qərarına əsasən, digər işçiləri isə bələdiyyənin müsabiqə komissiyasının qiymətləndirməsinin nəticəsinə uyğun olaraq bələdiyyənin sədri təyin edir.

“Bələdiyyə qulluğu haqqında” Qanunun 5-ci maddəsinin ikinci hissəsinə əsasən vətəndaşlar bələdiyyə qulluğuna müsabiqə əsasında qəbul edilirlər.

“Bələdiyyələrin statusu haqqında” Qanunun 17-ci maddəsinə əsasən bələdiyyələr öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və qərar layihələrinin hazırlanması üçün, habelə bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyələrə məxsus hüquqi şəxslərin fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər. Daimi və başqa komissiyalar səlahiyyətləri daxilində fəaliyyətlərinin təşkili məqsədilə öz işinə ekspertlər cəlb edə bilər.

Bələdiyyə qulluğuna qəbulun müsabiqə əsasında keçirilməsi üçün 5 nəfər bələdiyyə üzvü və qulluqçusundan ibarət bələdiyyənin müsabiqə komissiyası yaradılır. Komissiyanın tərkibi, sədri və sədr müavini bələdiyyənin qərarı ilə təsdiq edilir.

Müsabiqə komissiyası öz fəaliyyətini iclaslar vasitəsilə həyata keçirir və iclaslar üzvlərin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Sədr olmadıqda iclaslara sədr müavini sədrlik edir.

Komissiyanın fəaliyyəti qanunçuluq, obyektivlik, şəffaflıq və bərabərlik prinsipləri əsasında həyata keçirilir və komissiyanın işinə müdaxilə yolverilməzdir. Namizədlərin müvafiq vəzifəyə uyğunluğu onların bilik səviyyəsinə, peşə hazırlığına, ümumi dünyagörüşünə və müvafiq vəzifə üçün tələb olunan keyfiyyətlərə əsasən qiymətləndirilir. Komissiyanın işinə müvafiq sahələr üzrə ekspertlər cəlb edilə bilər.

Müsabiqə komissiyasının üzvlərinin onun səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək, təkliflər vermək, habelə bu komissiyanın qərar, protokol və digər sənədləri ilə tanış olmaq, onlarla razılaşmadıqda xüsusi rəy vermək hüququ vardır.

Eyni zamanda üzvlərin aşağıdakı vəzifələri vardır:

- müsabiqə komissiyasının iclaslarını üzrsüz səbəbdən buraxmamaq və vaxtında müsabiqənin keçirilmə yerində olmaq;
- müsabiqə komissiyasının iclaslarında baxılan məsələlər üzrə səsvermədə iştirak etmək;
- müsabiqə komissiyası üzvünün adına və qərəzsizliyinə xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməmək.

Müsabiqə zamanı komissiyanın üzvləri tərəfindən aşağıda göstərilən tələblərə əməl edilməlidir:

- namizədin şəxsiyyətinə və fikirlərinə hörmətlə yanaşmaq;
- namizədə müvafiq vəzifəyə yararlı olub-olmaması barədə fikir bildirməmək;

• müsabiqənin keçirildiyi otağı tərk etməmək və rabitə vasitələrindən istifadə etməmək.

Müsabiqə komissiyasının üzvü namizədlərdən hər hansı biri ilə yaxın qohumluq, şəxsi yaxınlıq, asılılıq münasibətində olduqda, yaxud obyektiv qiymətləndirməyə mənfi təsir edə bilən hallar mövcud olduqda, özü-özünə etiraz etməlidir. Eyni qaydada namizəd belə əsaslar olduqda, müsabiqə başlamazdan əvvəl müsabiqə komissiyasının hər hansı üzvünə etiraz edə bilər. Əsaslandırılmış etiraz verildikdə, barəsində etiraz verilmiş komissiya üzvü həmin etirazın verilməsinə səbəb olmuş namizədə münasibətdə müsabiqə komissiyasının qiymətləndirməsində iştirak edə bilməz. Əgər etiraz nəticəsində müsabiqə komissiyasının fəaliyyətini həyata keçirməsi mümkün olmazsa, həmin namizədə münasibətdə müsabiqə komissiyası yenidən təşkil olunur.

Komissiyanın iclaslarında baxılan məsələlər üzrə qərarlar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, sədrlik edənin səsi həlledicidir. Müsabiqə komissiyasının iclası protokollaşdırılır, protokol iclasda iştirak edən bütün komissiya üzvləri tərəfindən imzalanır. Komissiya üzvünün xüsusi rəyi olduqda protokolda bununla bağlı qeyd aparılır və xüsusi rəy protokola əlavə olunur.

Müsabiqə zamanı namizədin arzusu ilə videoçəkilişdən istifadə edilə bilər. Bu halda videoçəkiliş komissiyanın normal fəaliyyətinə maneçilik törətməməlidir.

Qanunun 5-3-cü maddəsinə əsasən fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olan şəxslər, həmçinin bələdiyyənin sədri, sədr müavinləri və bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi bələdiyyə qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olan şəxslər bələdiyyə qulluğuna qəbul edilə bilməzlər.

## 2.2. Bələdiyyə qulluqçularının hüquq və vəzifələri, təminatları və məsuliyyəti

"Bələdiyyə qulluğu haqqında" Qanunun 2-ci maddəsinə əsasən bələdiyyə qulluqçusu yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən işçi hesab edilir.

Bələdiyyə qulluqçularının aşağıdakı hüquqları vardır:

• işə qəbul etmək və işdən azad etmək səlahiyyətinə malik olan vəzifəli şəxsdən öz xidməti vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını tələb etmək;

• vəzifə səlahiyyətlərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq orqanlardan, idarə, təşkilat və vətəndaşlardan zəruri məlumat və sənədləri almaq;

- səlahiyyətləri daxilində məsələlərin baxılmasında və onların həlli ilə əlaqədar qərar qəbul edilməsində iştirak etmək;
- həmkarlar ittifaqı yaratmaq, onlara daxil olmaq və təmsil etmək;
- əlavə təhsil almaq;
- bələdiyyə qulluğunun təkmilləşdirilməsi üzrə təkliflər vermək;
- öz hüquq və azadlıqlarının müdafiəsinin təminatını tələb etmək.

Bələdiyyə qulluqçularının vəzifələrinə isə aşağıdakılar daxildir:

- öz fəaliyyətlərində Azərbaycan Respublikasının Konstitusiyasına, "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər qanunlarına əməl etmək;
- vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə öz səlahiyyətləri çərçivəsində və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxmaq;
- rəhbərliyin "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Qanun, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və bələdiyyələrin nizamnaməsi bələdiyyələrin nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində qəbul etdiyi qərar və sərəncamları yerinə yetirmək;
- əmək və icra intizamına riayət etmək;
- yerli icra hakimiyyətinin müvafiq strukturları ilə fəaliyyətlərini əlaqələndirmək və yerli problemlərin həllində qarşılıqlı fəaliyyət göstərmək.

Həmçinin bələdiyyə qulluqçuları qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tuta, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 21.3-cü maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü ola, vəzifəsinin icrası ilə bağlı ona bəlli olan məlumatdan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə edə bilməzlər.

Bələdiyyə qulluqçuları mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilirlər.

Bələdiyyəyə qulluğa təyin edildikdən sonra qulluqçulara xidməti vəsiqə verilir.

Bələdiyyə qulluqçusunun iş vaxtı, məzuniyyəti, pensiyası və digər sosial təminatları Qanunun 10-cu maddəsində nəzərdə tutulmuşdur. Həmin maddənin tələblərinə əsasən bələdiyyə qulluqçularının iş vaxtı, məzuniyyəti, pensiyaların və başqa müavinətlərin təyin edilməsi və verilməsi qaydası və digər sosial təminatları Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Bələdiyyələrin maliyyə imkanları daxilində əlavə olaraq digər kompensasiyalar və ödənişlər, habelə müavinətlər verilə bilər. Bələdiyyələrin nizamnaməsi ilə bələdiyyə qulluqçularına digər imtiyaz və zəmanətlərin verilməsi nəzərdə tutula bilər.

Bələdiyyə üzvlərinin səlahiyyət müddətinin qurtarması bələdiyyə qulluqçularının vəzifələrindən azad edilmələri üçün əsas ola bilməz.

Bələdiyyə vəzifələrində işləyən və Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq müvafiq seçki komissiyasının həlledici səs hüquqlu üzvü olan şəxslər seçki komissiyasında fəaliyyətləri dövründə özlərinin razılığı

olmadan işəgötürənin təşəbbüsü ilə başqa işə keçirilə bilməz və ya vəzifələrindən azad oluna bilməzlər.

Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq namizədliyi qeydə alınmış bələdiyyə vəzifəsində işləyən şəxs namizəd kimi müvafiq seçki komissiyasında qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək bələdiyyə orqanının təşəbbüsü ilə işdən çıxarıla bilməz, öz razılığı olmadan başqa işə, başqa yerdə işləməyə keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz. Əmək münasibətlərinə dair "Bələdiyyə qulluğu haqqında" Qanunda nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir.

Bələdiyyə qulluqçularının əmək haqqı bələdiyyələrin büdcəsi hesabına, onun maliyyə imkanlarına uyğun olaraq bələdiyyə tərəfindən təsdiq edilmiş ştat cədvəli əsasında müəyyən edilir.

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

# III FƏSİL

# BƏLƏDİYYƏ ÜZV VƏ QULLUQÇULARININ ETİK DAVRANIŞ QAYDALARI

## 3.1. Etik davranış qaydalarının hüquqi əsasları və mahiyyəti

Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

İnsan ləyaqətinin qorunması və ona hörmət edilməsi, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqlara və azadlıqlara malik olması, hüquqların və azadlıqların hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə etməsi, hüquqlardan sui-istifadəyə yol verilməməsi Konstitusiyaya əsasən insan və vətəndaş hüquq və azadlıqlarının əsas prinsipləri kimi müəyyən edilir. Eyni zamanda qanunvericilikdə hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququnun olması, dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi kimi müddəalar da təsbit olunmuşdur.

Əhalinin qanunvericiliklə müəyyənləşdirilmiş yerli əhəmiyyətli məsələləri özlərinin həll və idarə etmələri üçün seçki yolu ilə formalaşdırdıqları idarəetmə orqanı kimi bələdiyyələr mahiyyətinə görə əhaliyə ən yaxın idarəetmə orqanıdır. Bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin ən mühüm şərtlərindən biri seçicilərinin, yerli əhalinin onlara inamının, dəstəyinin olmasıdır. Yerli əhəmiyyətli problemlərin həllini təşkil etmək, ərazidə yaşayan və işləyən vətəndaşların sosial qayğıları ilə məşğul olmaq, sakinlərin yaşayışı və istirahəti üçün sağlam mühit yaratmaq və qorumaq bələdiyyələrin əsas vəzifələrindən biridir.

Bu istiqamətdə bələdiyyə üzv və qulluqçuları tərəfindən etik davranış qaydalarına riayət olunmasının təmin edilməsi olduqca əhəmiyyətlidir.

Bələdiyyə üzv və qulluqçularının etik davranış qaydaları, bu qaydalara əməl olunmasına nəzarət mexanizmi, etik davranış qaydalarının pozulmasına görə intizam məsuliyyəti tədbirləri "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" və "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunları ilə tənzimlənir.

Hər bir bələdiyyə qulluqçusu və üzvü qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və etik davranış qaydalarını rəhbər tutaraq bu Qanunların müddəalarına əməl etməyə borcludur.

Həmin qanunların əsas məqsədi aşağıdakılardan ibarətdir:

1. yerli özünüidarə orqanlarının və bələdiyyə qulluğunun nüfuzunun artırılması, vətəndaşların yerli özünüidarə orqanlarına və bələdiyyə qulluqçularına etimadının yüksəldilməsi;

2. yerli özünüidarə orqanlarının və bələdiyyə qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması;

3. yerli özünüidarə orqanlarında korrupsiyanın və bələdiyyə qulluqçularının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması;

4. bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi;

5. bələdiyyə qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması;

6. yerli özünüidarə orqanlarının və bələdiyyə qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsir imkanlarının genişləndirilməsi.

“Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Qanunun 3-cü maddəsində bələdiyyə qulluqçularının xidməti davranışı ilə bağlı normalar əks olunmuşdur. Belə ki, həmin maddəyə əsasən bələdiyyə qulluqçusunun xidməti davranışı, yəni onun qanunla müəyyən olunmuş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyəti bu Qanunla müəyyən edilmiş etik davranış qaydalarına və prinsiplərinə əsaslanmalıdır.

Bələdiyyə üzv və qulluqçularının etik davranış qaydaları ilə bağlı qeyd olunur ki, qanunvericilikdə hər iki kateqoriya şəxslər üçün eyni və ya oxşar qaydalar müəyyən edilmişdir.

Belə ki, bələdiyyə üzvlərinin etik davranış qaydalarına aşağıdakılar aiddir:

1. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması;
2. Loyallıq;
3. İnsan hüquq və azadlıqlarına, şəxslərin qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət;
4. Mədəni davranış;
5. Qərəzsizlik;
6. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi;
7. Korrupsiyanın qarşısının alınması;
8. Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər;
9. Maraqlar toqquşmasının qarşısının alınması;
10. Əmlakdan istifadə;
11. Məlumatlardan istifadə;
12. İctimai və ya siyasi fəaliyyət.

Bələdiyyə qulluqçularına münasibətdə:

1. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması;
2. Loyallıq;

3. Mədəni davranış;
4. Qərəzsizlik;
5. Əmr, sərəncam və ya tapşırıqların yerinə yetirilməsi;
6. İnsanların hüquq və azadlıqlarına, qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət;
7. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi;
8. Korrupsiyanın qarşısının alınması;
9. Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər;
10. Maraqlar toqquşmasının qarşısının alınması;
11. Əmlakdan istifadə;
12. Məlumatlardan istifadə;
13. İctimai və ya siyasi fəaliyyət.

**Peşəkarlıq və fərdi məsuliyyətin artırılması** - Şəxsin, cəmiyyətin, bələdiyyənin və dövlətin maraqları naminə bələdiyyə qulluqçusu və üzvü öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur. Bələdiyyə qulluqçusu və üzvü öz fəaliyyətini qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində və peşəkarlıqla yerinə yetirməli, etik davranışı və peşəkar fəaliyyəti ilə yerli özünüidarə orqanlarına inamı artırmalı və möhkəmləndirməlidir.

**Loyallıq** - Bələdiyyə qulluqçusu və üzvü onun xidməti vəzifəsinə aid olmadığı hallarda, yerli özünüidarə orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Bu, bələdiyyə qulluqçusunun və üzvünün elmi-pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına şamil edilmir. Bələdiyyə üzvü vəzifələrin icrasına uyğun olmayan və onun adına xələl gətirə biləcək, habelə yerli özünüidarə orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

**İnsanların hüquq və azadlıqlarına, qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət** - Bələdiyyə üzv və qulluqçularının fəaliyyəti insanların hüquq və azadlıqlarının, qanuni maraqlarının təmin olunmasına (qorunmasına) xidmət etməlidir. İnsanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməli, xidməti vəzifələrinin icrası ilə bağlı fiziki şəxslərin, habelə digər bələdiyyə qulluqçularının şəxsi həyatı, şərəf və ləyaqəti barədə ona məlum olan məlumatların konfidensiallığını təmin etməlidir.

Bələdiyyə qulluqçusu hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

**Mədəni davranış** - Bələdiyyə üzv və qulluqçusu bütün şəxslərlə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyindəki şəxslərlə münasibətdə qərəzsiz, nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalı, haqsız irad tutmamalı, kobudluq etməməlidir.

**Qərəzsizlik** - Bələdiyyə üzvü vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul edərkən, bələdiyyə qulluqçusu isə xidməti vəzifəsini yerinə yetirərkən və ya qərar qəbul

edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şərait yaradılmasına yol verməməlidir. Bələdiyyə üzvü özünün və ya maraqlı şəxslərin mənafelərinin onun vəzifələrinin yerinə yetirilməsinə təsir göstərməsinə yol verməməli və belə təsir üçün şərait yaratmamalıdır.

Bələdiyyə qulluqçusu xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı siyasi bitərəfliyə əməl etməyə borcludur.

Bələdiyyə qulluqçusu özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrinin yerinə yetirilməsinə təsir göstərməsinə yol verməməli və belə təsir üçün şərait yaratmamalıdır.

**Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi** - Bələdiyyə üzvü və qulluqçusunun qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etməsi və ya qərarlar qəbul etməsi qadağandır. Bələdiyyə qulluqçusu onun hərəkətlərinin (hərəkətsizliyinin) və ya qərarlarının maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

**Korrupsiyanın qarşısının alınması** - Bələdiyyə üzvü və ya qulluqçusuna qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda, onlardan imtina edilməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər bələdiyyə qulluqçusuna ondan asılı olmayan səbəblərdən verilərsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməlidir və maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər bələdiyyə qulluqçusunun qulluq keçdiyi bələdiyyə orqanına akt üzrə təhvil verilməlidir. Bələdiyyə üzvü isə bu barədə növbəti bələdiyyə iclasında bələdiyyə üzvlərinə məlumat verməli və maddi nemətlər akt üzrə bələdiyyəyə təhvil verilməlidir.

**Hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər** - Bələdiyyə üzv və qulluqçusu vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya belə təsir təəssüratı yaradan, yaxud vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya belə mükafat təəssüratı yaradan hədiyyələri özü və digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. Bu qayda qonaqpərvərliklə bağlı və dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir.

Həmin Qanunun 8.2-ci maddəsinə əsasən vəzifəli şəxs xidməti vəzifələrinin icrası ilə əlaqədar bir il ərzində hər hansı fiziki və ya hüquqi şəxsdən ümumi məbləği əlli beş manatdan yuxarı olan bir və ya bir neçə hədiyyəni qəbul edə bilməz. Həmin məbləğdən yuxarı olan hədiyyələr şəxsin xidməti vəzifəsini həyata keçirdiyi dövlət orqanına, yerli özünüidarəetmə orqanına və ya quruma məxsus hesab edilir.

Bələdiyyə qulluqçusu hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə birbaşa rəhbərinin, bələdiyyə üzvü isə bələdiyyə iclasının rəyini öyrənməlidir.

**Maraqlar toqquşmasının qarşısının alınması** - Bələdiyyə qulluqçusu qulluq etdiyi dövrdə, bələdiyyə üzvü isə fəaliyyəti dövründə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

Bələdiyyə qulluqçusunun xidməti vəzifələri ilə onun şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda o, bələdiyyə qulluğuna qəbul olunduqda, habelə bundan sonrakı dövrdə həmin maraqların xarakteri barədə məlumat verməyə borcludur.

Bələdiyyə qulluqçusu başqa vəzifəyə keçmə ilə əlaqədar təkliflərin maraqların toqquşmasına səbəb ola biləcəyi hallarda bu barədə bələdiyyə orqanının rəhbərinə, bələdiyyə üzvü isə bələdiyyə iclasına məlumat verməlidir.

Bələdiyyə qulluqçusu vəzifəyə təyin edilərkən və bundan sonrakı müddətdə etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı normativ hüquqi və normativ xarakterli aktlarla tanış olmalıdır. Həmin aktlara əməl edilməsi ilə bağlı bələdiyyə qulluqçusunda hər hansı sual yarandıqda, bu barədə birbaşa və ya yuxarı rəhbərinə müraciət etməlidir.

Bələdiyyə üzvü etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə və maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı normativ hüquqi və normativ xarakterli aktları bilməlidir.

**Əmlakdan istifadə** - Bələdiyyə qulluqçusu istifadəsində olan bələdiyyə əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlığından qənaətlə və səmərəli istifadə etməlidir.

Bələdiyyə qulluqçusuna bələdiyyə əmlakından, maliyyə vəsaitlərindən, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlığından şəxsi maraqları naminə, habelə xidməti vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etmək qadağandır.

Bələdiyyə üzvü də öz növbəsində istifadəsində olan bələdiyyə əmlakından və maliyyə vəsaitlərindən qənaətlə və səmərəli istifadə etməlidir. Bələdiyyə üzvünə bələdiyyə əmlakından, maliyyə vəsaitlərindən şəxsi maraqları naminə, habelə vəzifələrinin icrası ilə əlaqədar olmayan digər məqsədlər üçün istifadə etməsi qadağandır.

**Məlumatlardan istifadə** - Bələdiyyə qulluqçusu xidmət etdiyi yerli özünüidarə orqanının sərəncamında olan məlumatların qanunla müəyyən olunmuş qaydada əldə olunmasının və yayılmasının mümkünlüyünü təmin etməli, həmçinin yerli özünüidarə orqanında müəyyən olunmuş xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməlidir.

Bələdiyyə qulluqçusu xidməti fəaliyyəti zamanı əldə etdiyi məlumatlardan şəxsi maraqları üçün istifadə edə bilməz.

Bələdiyyə üzvü yerli özünüidarə orqanında xidməti informasiyanın təqdim edilməsi qaydalarına əməl etməli və fəaliyyəti zamanı əldə etdiyi məlumatlardan şəxsi maraqları üçün istifadə etməməlidir.

**İctimai və ya siyasi fəaliyyət** - Bələdiyyə qulluqçusunun ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti onun xidməti vəzifələrini qərəzsiz və obyektiv yerinə yetirdiyinə ictimai şübhə doğurmamalıdır.

Bələdiyyə qulluqçusu qulluq mövqeyindən, bələdiyyə üzvü isə səlahiyyətlərindən istifadə edərək digər bələdiyyə qulluqçularını ictimai və ya siyasi birliklərin, yaxud dini təşkilatların fəaliyyətində iştiraka təhrik etməməlidir.

Həmçinin hər iki kateqoriya şəxslər üçün bələdiyyə orqanlarında ictimai və ya siyasi birliklərin (həmkarlar ittifaqları istisna olmaqla), yaxud dini təşkilatların struktur bölmələrini yaratmaq və ya həmin orqanlarda göstərilən struktur bölmələrin yaradılmasına yardım etmək, seçkilər zamanı öz vəzifə mövqeyindən və səlahiyyətlərindən özünün və ya digər namizədlərin, siyasi partiyaların, siyasi partiyaların bloklarının xeyrinə istifadə etmək qadağandır.

Sadalanan etik davranış qaydalarından əlavə qanunvericiliklə sırf bələdiyyə qulluqçularına münasibətdə əmr, sərəncam və tapşırıqların yerinə yetirilməsi qaydası nəzərdə tutulmuşdur.

**Əmr, sərəncam və tapşırıqların yerinə yetirilməsi** - Bələdiyyə qulluqçusu birbaşa və ya yuxarı rəhbərinin qanunlara uyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur.

Birbaşa və ya yuxarı rəhbəri tərəfindən ona verilən əmr, sərəncam və ya tapşırığın qanuna və ya digər normativ hüquqi akta zidd olmasına əmindirsə, bələdiyyə qulluqçusu bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməlidir. O, birbaşa rəhbərindən bu əmr, sərəncam və ya tapşırığın yazılı şəkildə təsdiq olunmasını tələb etməlidir. Birbaşa rəhbərindən yazılı şəkildə əmr, sərəncam və ya tapşırıq almasına baxmayaraq, bələdiyyə qulluqçusu onların normativ hüquqi akta zidd olduğuna inanmaqda davam edərsə, o, həmin əmr, sərəncam və ya tapşırığın yerinə yetirilməsindən imtina edə bilər.

Qanuni göstərişlərin yerinə yetirilməməsi isə intizam məsuliyyətinə səbəb olur.

## 3.2. Etik davranış qaydalarına əməl olunmasına nəzarət

Vətəndaşların bələdiyyələrə, onların vəzifəli şəxslərinin fəaliyyətinə olan etimadının yüksəldilməsində yerli özünüidarəetmə orqanlarının, onların sədrlərinin, digər üzvlərinin və əməkdaşlarının üzərinə böyük məsuliyyət düşür.

Yerli özünüidarəetmə sahəsində vətəndaş məmnunluğunun artırılması, vətəndaşlar tərəfindən bələdiyyələrə göstərilən etimadın və yerli özünüidarə orqanlarının əhali arasında nüfuzunun yüksəldilməsi məqsədilə bələdiyyə sədrləri, eləcə də bələdiyyə üzv və qulluqçuları tərəfindən qanunvericiliyin tələblərinin öyrənilməsi, həmin tələblərə riayət olunması, yerli özünüidarəetmə sahəsində korrupsiya hüquq pozuntularına yol verilməməsi və etik davranış qaydalarına əməl olunması olduqca əhəmiyyətlidir.

Qanunvericiliyin tələblərinə əsasən bələdiyyə üzv və qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasına bələdiyyənin sədri nəzarət edir.

Belə ki, “Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında” Qanunun 15.2-ci, “Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Qanunun isə 18.2-ci maddəsinə əsasən bələdiyyə sədri:

- öz davranışı ilə etik davranış qaydalarına əməl olunmasına nümunə göstərməlidir;
- bələdiyyə üzvlərini hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkətə və qərarlar qəbul etməyə sövq etməməlidir;
- etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görməlidir;
- bələdiyyə üzvlərinə və qulluqçularına etik davranış qaydalarını izah etməli və müraciət olunduğu təqdirdə, etik davranış qaydalarına əməl edilməsinə dair onlara tövsiyələr verməlidir;
- etik davranış qaydalarını pozan bələdiyyə üzvlərinin intizam məsuliyyətinə cəlb edilməsi məqsədi ilə müvafiq məsələnin bələdiyyə iclasında müzakirəyə çıxarılması üçün tədbirlər görməlidir;
- etik davranış qaydalarını pozan bələdiyyə qulluqçularının intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görməlidir;
- vətəndaşları və hüquqi şəxsləri etik davranış qaydaları, eləcə də bələdiyyə üzvlərinin və qulluqçularının həmin qaydalara əməl etməsini tələb etmək hüququna malik olduqları barədə məlumatlandırmaq üçün tədbirlər görməlidir;
- etik davranış qaydalarının pozulması halları ilə bağlı həyata keçirilmiş tədbirlər barədə vətəndaşları, hüquqi şəxsləri və bələdiyyə üzvlərini məlumatlandırmalıdır;
- tabeliyində olan bələdiyyə qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparmalıdır;
- rəhbərlik etdiyi yerli özünüidarə orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl etməlidir;
- etik davranış qaydalarının pozulmasının nəticələrinin aradan qaldırılması, habelə bələdiyyəyə ictimai etimadın artırılması üçün tədbirlər görməlidir.

Bələdiyyə üzvü tərəfindən etik davranış qaydalarına əməl olunmasını təmin etmək üçün bələdiyyə üzvlərinin davranışının etik normalara uyğunluğu ildə bir dəfədən az olmayaraq, bələdiyyə iclasında müzakirə edilməli və nəticəsi üzrə tədbirlər görülməlidir.

Etik davranış qaydalarının pozulması bələdiyyə üzvünün və qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

Bələdiyyə üzvü və qulluqçusu barədə aşağıdakı hallarda bu əsasla intizam icraatına başlanıla bilər:

- qanunvericiliklə müəyyən edilmiş etik davranış qaydalarının bələdiyyə üzvü və ya qulluqçusu tərəfindən pozulması barədə hüquqi və ya fiziki şəxslərdən şikayət, yaxud digər məlumatın daxil olması;
- mediada bələdiyyə üzvü və ya qulluqçusu tərəfindən etik davranış qaydaları barədə müvafiq qanunvericilik aktlarının müddəalarının pozulmasına və maraqların toqquşmasına yol verildiyi barədə məlumatın dərc edilməsi.

İntizam icraatı zamanı bələdiyyə üzvü və qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, bu barədə cinayət təqibi orqanına məlumat verilməlidir.

Bələdiyyə iclasının qərarı əsasında etik davranış qaydalarının pozulmasına görə bələdiyyə üzvünə aşağıdakı intizam məsuliyyəti tədbirlərindən biri tətbiq edilə bilər:

- xəbərdarlıq;
- töhmət.

İntizam tənbehi tətbiq edilərkən, bələdiyyə üzvünün şəxsiyyəti, kollektivdə nüfuzu, peşəkarlıq səviyyəsi, onun törətdiyi xətanın xarakteri nəzərə alınmalıdır.

Bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasını təmin etmək üçün bələdiyyə qulluqçusunun davranışının etik davranış qaydalarına uyğunluğu onun özü, birbaşa və yuxarı rəhbəri tərəfindən müntəzəm təhlil edilir.

İntizam icraatı zamanı bələdiyyə qulluqçusu tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş bələdiyyə orqanının rəhbəri bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

Etik davranış qaydalarının pozulmasına görə bələdiyyə qulluqçularına aşağıdakı intizam məsuliyyəti tədbirlərindən biri tətbiq edilə bilər:

- töhmət vermək;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət vermək;
- aşağı vəzifəyə keçirmək;
- bələdiyyə qulluğundan azad etmək.

İntizam tənbehi tətbiq edilərkən bələdiyyə qulluqçusunun şəxsiyyəti, kollektivdə nüfuzu, peşəkarlıq səviyyəsi, onun törətdiyi xətanın xarakteri nəzərə alınmalıdır. Qeyd olunan intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan bələdiyyə qulluqçusuna yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər.

Etik davranış qaydalarını pozmuş bələdiyyə üzvü və qulluqçusu barəsində intizam məsuliyyəti tədbiri pozuntunun aşkar edildiyi gündən etibarən 30 gün ərzində tətbiq edilir. Həmin qaydaları pozmuş bələdiyyə üzvü üzvlükdən çıxmaq barədə bələdiyyə iclasına ərizə verdikdə və bunun əsasında üzvlüyünə xitam verildikdə, ona qarşı intizam məsuliyyəti tədbirləri tətbiq edilmir.

# ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikasının Konstitusiyası;
2. Azərbaycan Respublikasının Seçki Məcəlləsi;
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi;
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;
5. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu;
6. "Bələdiyyə üzvünün statusu haqqında" Azərbaycan Respublikasının Qanunu;
7. "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu;
8. "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu;
9. "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu;
10. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu;
11. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu;
12. İ.O.Quliyev – Azərbaycan Respublikasının Bələdiyyə Hüququ. Dərslik. 1-ci Kitab. Bakı, 2020;
13. İ.O.Quliyev – Azərbaycan Respublikasının Bələdiyyə Hüququ (nəzəri və praktiki sxemlərdə). Dərslik. 3-cü Kitab. Bakı, 2019.